***Azərbaycanın ərazisində daşişləmə sənəti çox qədim tarixə malik olmuşdur.***

***Bunu Azıx, Damcılı, Tağlar, Daşsalahlı paleolit, orta və son paleolit düşərgələrindən aşkar edilmiş maddi mədəniyyət qalıqları – qaşov, bıçaq, biz, iskənə, çapacaq kimi ibtidai əmək alətlərinə əsasən arxeoloji tədqiqatlar təsdiq etmişdir.***

***Daşişləmə sənətinin ən qədim növü daş üzərində itiuclu alətlər vasitəsilə oyma işi olmuşdur. Üstü təsvirli daşların nümunələrinin Damcılı, Qobustan, Kəlbəcər və Laçında aşkar edilməsi əcdadlarımızın həkkaklıq texnikasına yaxından bələd olduğunu göstərir.***

***Azərbaycan ərazisində tapılmış həkkaklıq nümunələri e. ə. I minilliyin başlanğıcından eramızın XX əsrinə qədər olan uzun bir dövrün müxtəlif mərhələlərində yaradılmışdır (K.Kərimov, R.Əfəndiyev, N.Rzayev, N.Həbibov. Azərbaycan incəsənəti. Monoqrafiya. Bakı. İşıq. 1992.səh 46). Bunların çoxu Qafqaz Albaniyası dövrünə aid olub Mingəçevir, Torpaqqala, Xınıslı, Qəbələ, Örənqala və s. yerlərdən tapılmışdır.***

***Bu abidələrdən tapılmış daşların üzərində səma cisimləri (günəş, ay, ulduz), heyvan və nəbati təsvirlərə daha çox təsadüf olunmuşdur. Arxeoloqların fikrincə, bu təsvirlərdə Zərdüştlüyün təsiri aydın hiss olunur.***

***Qafqaz Albaniyası incəsənətinin ikinci dövründə heykəltəraşlıq tərəqqiyə çatmışdı. Bu dövrün incəsənətində (I-VII əsrlər) dairəvi heykəllər, qəbirüstü abidələr və qabartma tipli təsvirlər üstünlük təşkil etmişdir.***

# Daşişləmə sənəti

Orta əsrlər dövründə Azərbaycanda daş üzərində oyma, cızma üsulu ilə insan, heyvan təsvirlərinin həkk edilməsi geniş yayılmışdı. Bu təsvirlərin əksəriyyətinə memarlıq abidələri və məzar daşlarının üzərində təsadüf edilmişdir. XIII əsrdən başlayaraq daşişləmədə həndəsi və stilizə edilmiş nəbati ornamentlərlə yanaşı real səpkidə işlənmiş gül-çiçək, insan və heyvan təsvirləri tətbiq edilmişdir. Bu təsvirlərə daha çox memarlıq abidələrində rast gəlinir. Laçın rayonu ərazisində Cicimli kəndində yerləşən Məlik Əjdər türbələrinin üzərindəki cızma üsulu ilə işlənmiş müxtəlif təsvirlər bu qəbildəndir.

Kəlbəcər və Laçın rayonlarında dəniz səviyyəsindən 3000-3500 m. hündürlükdə yerləşən Soltan Heydər, Sərçəli dağ, Qızıltəpə, Qonaqgörməz, Gəlin qayası, Qaragöl və s. ərazilərdə sərt bazalt daşlarının üzərində günəş, ay, ulduz, vəhşi öküz, ov səhnələri və s. oyma üsulu ilə işlənmişdir.

XVI-XVII əsrlərdə daş üzərində oyma bəzək nümunələrinə məzarüstü daşlarda daha çox rast gəlinmişdir.

Məzar daşları müxtəlif formalarda yonulmuş stellalardan (vertikal başdaşı), sarkofaqlardan (horizantal sənduqələr), at, qoç fiqurlu heykəllərdən ibarət olmuşdur. Məzar daşlarının üzərində həndəsi, nəbati ornamentlərlə yanaşı insan, heyvan, quş fiqurları, süjetli kompozisiyalar həkk edilmişdir. Bu bəzəklər əsasında orada dəfn olunmuş şəxsin cinsini, həyatını, peşəsini müəyyən etmək mümkündür.

Məzar daşlarının üzərində ibrətamiz yazılar da həkk olunmuşdur. Bir sıra məzar daşlarının üzərində astral təsvirlərə – günəş, ay, ulduzu əks etdirən svastika, zolaqlı dairə və s. təsadüf olunur. Belə daşlardan biri – Laçın rayonunun Pircahan kəndindəki qədim qəbiristanlıqda bir başdaşının üzərindəki ay, ulduz təsvirləri xüsusi maraq doğurur.

Bölgənin ərazisində müxtəlif səpkili süjet kompozisiyalarına malik məzar daşları içərisində qadın və kişi peşələrini əks etdirən nümunələr də çoxdur. Adətən kişi məzarlarında ov və döyüş, qadın məzarlarında isə xalçaçılığı əks etdirən səhnələr üstünlük təşkil etmişdir.

Kəlbəcər rayonu ərazisində, Keyti dağının ətəyində Zar kəndində daş sarkofaqın üzərində üz-üzə dayanmış kərgədan və pələng, onları nişan almış silahlı atlıların təsviri üslub xüsuşiyyətinə görə xüsusilə fərqlənir.

Məlum olduğu kimi hələ çox qədim zamanlardan ovçuluq kişilik, mərdlik, şücaət rəmzi hesab edilmişdir. Bu fikir «Kitabi - Dədə Qorqud» dastanında özünün bariz nümunəsini tapmışdır. Dastandan göründüyü kimi «ov ovlayan, quş quşlayan ər» (*Kitabi-Dədə Qorqud. Bakı. Yazıçı. 1988. səh. 166*) el-oba içində böyük hörmət və izzət sahibi olmuşdur. Adətən ovçuların xüsusi ov itləri, ov quşları, hətta əhliləşdirilmiş ov bəbirləri olmuşdur ki, onlardan ov zamanı heyvanın qovulmasında istifadə edilmişdir.



Laçın rayonu Zeyvə kəndi ərazisində belə süjet daş sənduqənin üzərində işlənmişdir. Süjetdə ov bəbirinin dağ keçisini qovması, arxa planda isə atlı ovçunun təsviri verilmişdir.

Sonasar kəndi (Laçın rayonu) ərazisində yerləşən və döyüş səhnəsini əks etdirən daş sənduqənin üzərində döyüşçülər və döyüş əslahələri – xəncər, nizə təsvirləri xüsusi məharətlə işlənmişdir.

Azərbaycanın hər yerində olduğu kimi bölgədə də bolluq, bərəkət, qələbə rəmzi hesab edilən qoç və at fiqurları geniş yayılmışdır.

Bölgənin ərazisində daş qoç və at heykəllərinin, sapkofaqların olması haqqında tədqiqatçıların məlumatları xüsusi maraq doğurur.

1834-cü ildə Azərbaycanda olmuş fransız səyyahı Dübua-de Monpere Qarabağda çoxlu daş heyvan fiqurları gördüyünü və yerli əhalinin onlara xüsusi hörmət bəslədiyini qeyd etmişdir (*K.Kərimov, R.Əfəndiyev, N.Rzayev, N.Həbibov. Göstərilən mənbə.*).

Tədqiqatçılardan V.Sısoyev, T.Aristova, Ə.Ələkbərov, R. Əfəndiyev, K.Kərimov, N.Rzayev, M.Nemətova bölgədəki daş heykəllərə həsr olunmuş maraqlı yazılar dərc etdirmişlər.

Tədqiqatçıların fikrincə Gəncə, Qazax, Ağdam, Laçın rayonlarında olan daş qoç fiqurlarının bir çox özünəməxsus xüsusiyyəti vardır. Bu ərazinin daş qoç fiqurları daha çox uzaq keçmişlərin arxaik sənət nümunələrini xatırladır (*Yenə orada. səh. 177*). Uzunluğu 80-90, hündürlüyü 50-60 sm.-dən böyük olmayan bu abidələr öz monumentallığı, formalarının ümumiləşdirilmiş bir səpkidə icrası ilə diqqəti cəlb edir (*Yenə orada.*).

Laçın rayonunun Zabux, Soltanlar, Seyidlər, Şəlvə və Güləbird kəndlərindəki qədim qəbiristanlıqlardakı at fiqurları XVI-XVII əsrlərin plastik sənəti haqqında dolğun təəssürat yaradır. Bazalt daşlardan yonulmuş oyma üsullu bəzəkləri ilə diqqəti cəlb edən at fiqurunun üstündə nəbati və həndəsi naxışlar, nəsx yazılar, quş, insan təsvirləri xüsusi maraq doğurur.

Zabux kəndindəki at fiqurları mənbələrdə belə xarakterizə olunur: «Hər at fiqurunun üstündə qabarıq səpkidə yəhər yonulmuşdur. Bundan əlavə atın üzərində saçaqlı çul və atçılıqda istifadə olunan qoşumlar da (yüyən, cilov, üzəngi və s.) təsvir edilmişdir. Onlar yəhərə nisbətən xeyli səthi oyulduğu üçün elə bil ki, ikinci planda verilmişdir.» (*Yenə orada. səh. 179*)

Bu səpkidə işlənmiş başqa bir at heykəli Kəlbəcər rayonunun Zəylik kəndində yerləşir. Fiqurun üzərində ərəb dilində: «O, Əli. Müəllif Təhməz b. Kərbəlayı... Məhəmməd. Bu müqəddəs yataqda Kərbəlayı Hüseyn b..., Hacı (1291)» yazılmışdır. 1291-ci il hicri tarixi isə 1874-1875-ci il miladi tarixidir (*М.Нейматова. Мемориальные памятники Азербайджана. стр. 34.*).

Göründüyü kimi qəbirüstü fiqurların hazırlanması ənənəsi XIX əsrdə də davam etməkdə idi.

XIX əsr və XX əsrin əvvəllərində daşişləmə sənəti bir sıra istehsal prosesləri ilə – daşçıxarma, daşyonma, həkketmə və s. davam etdirilmişdir.

Artıq bu dövrdə Cəbrayıl qəzasında daş karxanası fəaliyyət göstərirdi.

Daşişləmə sənətində müxtəlif texniki üsullardan istifadə edilmişdir. Daşın yonulması, cilalanması və s. belə üsullardan hesab edilir. Belə üsullarla hazırlanmış daşlardan tikinti materialı kimi evlərin, körpülərin, türbələrin, məscidlərin, hamamların və s. tikintisində geniş istifadə edilmişdir.

Daşişləmə sənəti məişətdə də geniş tətbiq olunmuşdur. Bir sıra təsərrüfat ləvazimatları - dibək, dəyirman daşı, kirkirə, su daşı, daş vəllər, axur, daş su novları, eləcə də bulaqüstü abidələr və s. məişət əşyaları daşişləmə sənətinin nümunələrindən hesab edilir.

***Solmaz Məhərrəmova,***
***tarix elmləri namizədi***